Afaq Ramiz qızı Ağayeva[1]

# İLHAM ƏLİYEVİN NATİQLİK MƏHARƏTİ HAQQINDA ETÜDLƏR
## (Prezident İ.Əliyevin nitq və çıxışları əsasında)

Mən də YAP-ın bir üzvü kimi, partiyamızın, dövlətimizin rəhbəri, Prezident İlham Əliyevin bir sıra nitqləri, çıxışları ilə bağlı mülahizələrimi, düşüncələrimi, fikirlərimi Sizinlə bölüşmək istərdim, əziz oxucum! Onun 60 cildə yaxın əsərlərini oxumuşam. Müəllimlər, tələbələr, mühəndislər və digər sahələrin nümayəndələri ilə bağlı nitqlərindən götürdüyüm sitatlardan, yeri gəldikcə, məqalələrimdə, kitablarımda, öz ixtisasıma, çalışdığım müəssisənin profilinə uyğun (texniki ali məktəb) istifadə etmişəm (bax: 4 və s.). Və həmişə tələbə ilə də, müəllimlə də adresata tam uyğun qurduğu nitqlərinə heyran qalmışam. Qeyd etdiyim səbəbdən, bu məqaləmi bütünlüklə İlham Əliyevin nitq və çıxışlarına həsr etmək istəyirəm.

Haşiyə çıxaraq qeyd edim ki, "rəhbər" (fars sözüdür)– "tabeliyində olanları doğru yolla aparan" deməkdir (rah-yol, bər: boridən isə aparan, göstərən mənasını verir).

Ulu öndər H.Əliyev demişdir: *"Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun!* Çünki "*səlahiyyətli şəxslərin vəzifəsi –qanunlar əsasında xalqı faydalı işlərə yönəltmək, ədalətli göstərişlər verməkdir. Qanun vəzifəli şəxslərə əmr edir, vəzifəli şəxslər isə xalqa. Demək olar ki, hökumət –danışan qanundur, qanun isə lal hökumət"* (Siseron). Düzgün qərarlar qəbul etmək, başqalarına düzgün göstəriş vermək; öz fikirlərinin üzərində dayanmaq və inandırmaq, mühakimələrində müstəqil olmaq. Bütün bunlara da gözəl, düzgün qurulmuş nitq olmadan nail olmaq mümkün deyil.

Kamil adamın müdrikliyi: Az, amma qısa və düz danışmaq qabiliyyəti, sözləri muncuq tək sapa düzülürmüş kimi, fikirlərini nizamla açıqlamaq qabiliyyəti və təmkin; Kamil müdrikin müdrikliyi: fikirlərini açıqlamaqda ardıcıllıq, bu və ya digər hadisələrin səbəbini günlərlə müzakirə etmək qabiliyyəti, onlara hər tərəfdən yanaşmaq və eyni zamanda vahid bir ardıcıllıqla davamiyyət bacarığı. (Syui Tszi)

Məqaləmdə bu keyfiyyətlərə malik olan möhtərəm şəxsiyyət– Prezidentimizdən söz açmaq istəyirəm. İ.Əliyevin, öz saçlarını kəfən edib, övladlarının cənazəsi üstə sarıyan şəhid analarının qarşısındakı nitqi necə də təsirlidir...

"Haqq-ədalət bizim tərəfimizdədir. Ona görə bizim hərbçilərimiz şəhidlik zirvəsinə ucalaraq Vətən qarşısında öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirmişlər". (İlham Əliyev) (bax: 2)

Xalq şairi M.Araz demişkən:

**VƏTƏN DAŞI** olmayandan,
Olmaz ölkə **VƏTƏNDAŞI**!

"Eyni zamanda, gənc, vətənpərvər, Vətəni hər şeydən çox sevən nəsil yetişdi;- Azərbaycan gəncləri Vətən Müharibəsində böyük şücaət nümayiş etdirdilər. Vətənpərvərlik ruhunda, dövlətə sədaqət ruhunda yetişmiş Azərbaycan gəncləri torpaqlarımızı işğalçılardan azad etdilər. O cümlədən işğal edilmiş torpaqlarda heç vaxt olmayan, amma əslən o torpaqlardan olan gənclər torpaqları uğrunda aslan kimi vuruşurdular" (7).

Çıxışının bu hissəsində Prezidentimiz çox gözəl vurğulayıb: *"vətənpərvərlik ruhunda, dövlətə sədaqət ruhunda yetişmiş Azərbaycan gəncləri...* H.Əliyev deyirdi ki, *"vətənpərvərlik hər bir gəncin qəlbində olmalıdır!"* Çünki *"elə cinayət var ki, bağışlanmır, bu – Vətənə xəyanətdir"*. (Ə.H.Bəhmənyar) ("Vətənpərvər" sözü ərəbcə vətən, farsca isə pərvərdən (tərbiyə etmək) sözlərindən əmələ gəlsə də, indi "vətəni sevən" mənasını bildirir)

Dünya diplomatiyasının illər uzunu Qarabağ probleminə biganə münasibətini İ.Əliyev çox doğru və düzgün müstəvidə şərh edərək deyir: "Münaqişənin güc yolu ilə həlli qaçılmaz idi.

- Rəsmi İrəvanın yürütdüyü siyasət münaqişənin sülh yolu ilə həll olunmasını mümkünsüz etdi. Ermənistan rəhbərliyinin davranışı, təxribat xarakterli çıxışları, addımları bizi və beynəlxalq ictimaiyyəti əmin etmişdir ki, bu müharibənin sülh yolu ilə həlli mümkün deyil. Halbuki bu məsələ ilə məşğul olan Minsk qrupuna həmsədrlik edən ölkələrin yüksək vəzifəli rəsmi nümayəndələri daim təkrarlayırdılar ki, münaqişənin hərbi həlli yoxdur. Amma biz görürdük ki, münaqişənin sülh yolu ilə həlli yoxdur. Çünki əks-təqdirdə 30 il ərzində bu məsələ həll olunardı. Deməli, buna maraq yoxdur, yaxud da ki, belə nə hərb, nə sülh vəziyyəti kiminsə qane edirdi. Kiminsə qane edirdi ki, Azərbaycan xalqı 30 il ərzində belə vəziyyətdə yaşasın"(İlham Əliyev).(bax: 5)

Şair demişkən:

Susub Qarabağın dərdinə dünya,
Böyük diplomatik oyunlar içrə.
Utanmaz cahandan eyləyib həya,
Dikmişdir başını Üzeyir yerə.
(N.Atabəyli)

Lakin artıq bu vəziyyətə son qoyuldu. "Azərbaycan ordusu bundan sonra da güclənəcək. Yeni müqavilələr imzalanıb; ən müasir silahlar alınır, artıq onlar gətirilir. Dünyada hansı müasir silah varsa, onların alınması üçün də müqavilə imzalanıb və Azərbaycana gətiriləcək. Müharibə, eyni zamanda, ordunun gələcək təkmilləşdirilməsi məsələlərini də üzə çıxarıb. Aparılacaq islahatlar daha çevik, daha döyüşkən və döyüş qabiliyyəti yüksək olan ordunun yaranmasına gətirib çıxaracaqdır"- deyir Prezidentimiz (3).

[1] fed, professor .e-mail: afag.agayeva 58@ gmail.com. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti.Tel.: 055 735 45 26

*"İnsanı ümumxalq məhəbbətinin ən yüksək zirvəsinə ucalda bilən 2 sənət vardır: biri bacarıqlı sərkərdənin sənətkarlığı, digəri yaxşı natiqin sənətkarlığı". (Siseron).* Şükürlər olsun ki, bizim Prezidentimizdə bu ali keyfiyyətlərin hər ikisi var.

Xalqı və ordunu öz arxasınca apararaq qələbəyə çatdırdı Ali Baş Komandan! H.Əliyev demişdir: *"Orduda xidmət etmək hər bir gəncin qəlbində böyük arzu kimi yaşamalıdır. Hər bir gənc vətənpərvər olmalıdır. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq. Vətəni sevmək, torpağa bağlı olmaq. Budur vətənpərvərlik!"*

Gənclərimizi səfərbər edərək, onları mübarizə, qələbə əzmi ilə silahlandıran Prezidentimiz **"QALİB XALQIN ŞANLI ORDUSU"** ilə bağlı nitq söylədi. Bu möhtəşəm nitqi dinləyərkən istər-istəməz xalq yazıçımız M.S.Ordubadinin kəlmələri yada düşür: ***"Cəbhədə qılınc, məclisdə gözəl nitqə malik olanlar qəhrəmandırlar".*** İ.Əliyevin nitqindən sitatlar gətirirəm: "Müzəffər Ordu hədəfinə çatdı. Hədəf ərazi bütövlüyümüzün bərpa edilməsi idi və Azərbaycan hərbi qələbəni qazandı. Torpaqları danışıqlar, müzakirə yolu ilə yox, hərbi yolla azad etdik. Döyüşərək, qan tökərək, şəhidlər verərək ədaləti bərpa etdik. Şəhidlərimizin qanını yerdə qoymadıq. Düşməndən intiqamımızı döyüş meydanında aldıq; - Azərbaycan əsgəri qəhrəmanlıq nümunəsidir. Sal qayalara aşağıdan dırmaşmaq, müdafiə xətləriniyarmaq peşəkarlıq olmadan qeyri-mümkündür; Dağa dırmaşmaq, aşağıdan yuxarıya qalxmaq lazımdır. Şuşanın alınması isə, ümumiyyətlə, ayrıca dastandır". (İ.Əliyev) (6 )

Vətəndaşlarımız, Vətən daşlarımız, əsgərlərimiz onların arxasında qaya kimi möhkəm dayanmış sərkərdələrə söykənərək, qayaları, dağları fəth etmişlər, həyasız düşmənləri oradan qovmuşlar.

Üç cür natiqlik kateqoriyası mövcuddur:

I. belə natiqləri dinləmək olur.

II.bu cür natiqləri dinləmək olmur.

III. belə natiqləri isə... dinləməmək olmur.

Bizim Prezidentimizin, dinləyicilərini həm öyrədən, həm onlara zövq verən, həm də onları öz iradəsinə tabe edən maraqlı, məzmunlu nitqlərini heyranlıqla dinləməmək olmur. Bu keyfiyyətlərdən birincisi natiqliyin vəzifəsi, ikincisi məşhurluğun əsası, üçüncüsü isə uğurun başlıca şərtidir. Nitqlərinin rəngarəngliyi siyasətçi natiqdən nitq texnikasının mükəmməlliyini, cilalanmasını tələb edir. Müxtəlif səviyyəli, müxtəlif səciyyəli insanların ürəyinə nüfuz etməyi, onları həyəcana gətirən və ya əksinə, sakitləşdirməyi bacaran İ.Əliyev öz nitqlərində həmişə arzu edilən məqsədə çatıb. Bunu, onun xarici media nümayəndələrinə (hər 3 dildə: Azərbaycan, rus, ingilis) nümayiş etdirdiyi səlis və dolğun müsahibələrində görürük: "Bizim xalqlar sülh şəraitində yaşamalıdırlar. Bundan sonra Azərbaycan və erməni xalqlarının birgə yaşaması ilə bağlı aydın təsəvvürlər var. Azərbaycanda minlərlə erməni yaşayır. Bizim erməni xalqı ilə birgə yaşamağımızın böyük tarixi vardır. Həm Ermənistanda, həm Azərbaycanda, həm başqa ölkələrdə. Misal üçün, Gürcüstanda elə kəndlər var ki, orada azərbaycanlılar və ermənilər bir kənddə yaşayırlar.Biz əməkdaşlığa açıq olan ölkəyik və Azərbaycanda müxtəlif xalqların nümayəndələri əsrlərboyu bir ailə kimi yaşayırlar. Azərbaycanda heç vaxt dini, milli zəmində hər hansı qarşıdurma, anlaşılmazlıq olmamışdır". (bax: 3)

Burada bir haşiyə çıxmaq istəyirəm: ingilislərdə "mən" əvəzliyi böyük hərflə yazılır. Yəni orada hər bir şəxs üçün yalnız özü ən önəmlidir. Bizim dilimizin qrammatikasında isə bir çox məqamlarda qarşıdakına, ətrafdakılara müraciətlə işlətdiyimiz "Siz" əvəzliyi böyük hərflə yazılır. Bu bizim milli mənəviyyatımızdan irəli gəlir: Yalnız özünü, öz hiss və istəklərini eqoistcəsinə düşünmək yox, başqalarına da hörmət etmək!

- Davamlı sülh regionun inkişafını təmin edən əsas amildir. Davamlı sülhə nail olmaq prioritet vəzifədir. Düşmənçilik səhifəsi çevrilməlidir. 10 noyabr tarixində imzalanmış bəyanat bunun üçün zəmin yaradır. İmzalanmış Bəyanata sadiqlik nümayiş etdirməklə regionda sülh təmin olunacaq;
- Birgəyaşayışın əsas üsulu əməkdaşlıqdır.
- Qarabağda böyük iqtisadi layihələr icra olunacaq. Böyük şəhərlərin baş planları tərtib edilməlidir.
- Ərazilərin bərpa olunması yeni iqtisadi imkanlar yaradacaq. - Böyük Qələbə sayəsində Azərbaycan daha cəlbedici investisiya ölkəsinə çevrilib.
- Qarabağın böyük kənd təsərrüfatı potensialı var.
- Qarabağ alternativ enerji mənbəyinə çevriləcək. Qarabağ regionun müasir və ən inkişaf etmiş ərazisinə çevriləcəkdir.

Tarix boyu siyasi natiqlik hər ölkənin öz qanunlarına uyğun şəkildə inkişaf edirdi: Hindistanda milli dini və mədəni ənənələrə əsaslanırdı. Çində ölməz Konfutsinin təliminə söykənirdi. Müasir Azərbaycanımızda isə ulu öndər Heydər Əliyevin, möhtərəm prezidentimiz İlham Əliyevin siyasi arenadakı natiqliyi gələcək nəsillərə nümunə ola bilər. Yüksək savada, ictimai fəallığa, insanlar tərəfindən rəğbətlə qarşılanan vəzifəyə, dövlət qarşısında misilsiz xidmətlərə, natiqlik məharətinə malik olan Ali Baş Komandan ən ağır zamanlarda belə, əsl liderlik nümunəsi göstərərək, xalqın və ordunun məsuliyyətini öz üzərinə götürdü. Onları arxasınca apardı və... **Böyük Qələbəyə** çatdırdı.

*"Yaxşı iş heykəl kimidir. Hər yerdən görünər".* (atalar sözü)

Şərqdəki, Qərbdəki, Şimaldakı və Cənubdakı qonşularımız da bu qələbənin əks-sədasını duydular. Dostlarımız sevindi, düşmənlərimiz isə kədərləndi... Lakin bu heç də xalqımızı sarsıtmadı. Dost dəstəyini yüksək dəyərləndirən Prezident, xarici media nümayəndələrinə bunu böyük ruh yüksəkliyi və əzmi ilə çatdırdı: Türkiyə müharibənin ilk günlərindən çox müsbət davranış göstərib. Sülhə, sabitliyə hesablanmış davranış. Eyni zamanda, ilk günlərdən Azərbaycanın haqq işinə Türkiyə öz dəstəyini göstərmişdir;

- Müharibə dövründə ilk günlərdən Türkiyə Prezidenti açıqlamalar verdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bir çoxları üçün mesaj oldu ki, kənarda durun, müdaxilə etməyin, Azərbaycana mane olmayın;
- Türkiyənin müdafiə naziri, xarici işlər naziri, digər yüksək vəzifəli rəsmilər birmənalı olaraq Azərbaycana dəstək verdilər. Bu, Azərbaycana çox böyük siyasi və mənəvi dəstək oldu. Eyni zamanda, bütün dünyaya bir siqnal oldu ki, kənarda durun, müdaxilə etməyin;



MƏRUZƏ VƏ MƏQALƏLƏR –ДОКЛАДЫ И СТАТЬИ

Türkiyə dövlətinə göstərdiyi bütün dəstəyə görə bir daha təşəkkürümüzü bildiririk! (bax: 6)

Tanrıya şükürlər olsun ki, dualarımız qəbul olundu:

Bayraqları bayraq edən – üstündəki qandır,
Torpaq–əgər uğrunda ölən varsa, Vatandır!

(M.Araz)

Gənclərimiz Vətən uğrunda ölərək, onun Müqəddəs Torpaq olduğunu sübut etdilər. **QARABAĞ daha əvvəllər olduğu kimi: QARA bağımız, QARA dağımız, bağrımızın ağrısı deyil.** Çünki Prezident, ordu və xalq birləşərək düşmənin sinəsinə görünməmiş bir **DAĞ** çəkdirdi.

Sən də, **XARI BÜLBÜLÜM**, sarı bülbülüm, bu misilsiz **QƏLƏBƏNİN** simvoluna çevrildin. İndi Şuşanın şüşə kimi saf, təmiz təbiətindən ilham al, çiçəklən, qanadlan... Və Prezidentimizin bu sözlərini dünyanın hər bir guşəsinə çatdır:

**QARABAĞ BİZİMDİR!**

**QARABAĞ AZƏRBAYCANDIR!**

**P.S.** Düşmənə nə yazıqlar ki, Qarabağımızdan Azərbaycan Muğamının zəngulələri ucalır:

Vətən bağı al-əlvandır,
Yox üstündə yağı, bülbül.
Ömür sürməli dövrandır,
Səsin gəlsin, xarı bülbül!

**Ədəbiyyat:**


1. Cəfərov B.Diplomatik etiket və nitq mədəniyyəti (dərs vəsaiti), Bakı. 2009.
2. 25 fevral 2021-ci il tarixində Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimindəki Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışına dair tezislər. İnternet resursları.
3. Qalib xalqın şanlı Ordusu. Prezident İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün mətbuat konfransına dair tezislər – 4 ( 26.02.2021 ) İnternet resursları.
4. Əliyev İ.Seçilmiş əsərləri, 16-cı cild, Bakı, 2016, 416 s..
5. Azərbaycan-Türkiyə münasibətləri və Türkiyənin bölgədəki fəaliyyəti barədə Prezident İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün mətbuat konfransına dair tezislər-1. İnternet resursları. Bakı, 2021.
6. Ərazilərin bərpa olunması və Böyük Qayıdış haqqında Prezident İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün mətbuat konfransına dair tezislər-2. İnternet resursları. Bakı, 2021.
7. İşğaldan azad olunmuş ərazilərdə birgəyaşayış haqqında Prezident İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün mətbuat konfransına dair tezislər - 3. İnternet resursları. Bakı, 2021.


***Açar sözlər:*** *nitq, natiq, dövlət, rəhbər, natiqlik məharəti.*

**Key words**: speech, orator, state, Head, orator skill

**SUMMARY**

The speeches of the President of the Republic of Azerbaijan Ilham ALIYEV are revised from the point of view of the speech culture in this article. The considerations regarding the President`s speech are expressed. The facts about orator skills of Ilham Aliyev are presented and analyzed. The structure of the speech, stages and other matters are underlined from theoretical and practical point of view.

RƏYÇİ: dos. S.Abbasova